Vətənimsən ...

Müsahibimiz Azərbaycan Dövlət Teleradio Şirkəti xalq yaradıcılığı redaksiyasının baş redaktoru, filologiya elmləri namizədi, əməkdar incəsənət xadimi, "Qızıl qələm" mükafatı laureatı, "Ömrün bənövşə fəsli", "Övcunu tut yağışa", "Mən baxdığım pəncərə", "Dünənə məktub", "Tanışlıq", "Gecə zəngləri", "Karvan" və başqa şer kitablarının müəllifi, tanınmış folklorşünas, telejurnalist Ağalar Mirzədir.

-Ağalar müəllim, son günlər televiziyada "Ozan" folklor toplusunun bərpa olunduğunu görürük.

-Vaxtilə televiziyamızda çox populyar olan, xalqın sevə-sevə izlədiyi "Ozan" folklor toplusu uzun fasilədən sonra ekran ömrünü yaşamağa başlayıb. 1979-cu ildən 1986-cı ilədək radionun "Bulaq" verilişinin redaktoru olmuşam. 1986-cı ildə "Ozan"a redaktor gəlmişəm. Qarabağ müharibəsi, ümumiyyətlə, respublikada baş verən siyasi-iqtisadi çətinliklərlə bağlı "Ozan" verilişinin çəkilişləri dayandırıldı. O dövrdə çəkilişlərimiz demək olar ki, ən ucqar kəndlərimizdə belə aparılırdı. Ermənistanda yaşayan soydaşlarımızın öz ata-baba yurdlarını tərk elməsi, Göyçədə, Qarabağda folklor mühitinin dağılması ilə nəticələndi. Bu ərazilərimiz işğal altında olduğundan həmin yerlərdə çəkilişlər apara bilmirik. Misal üçün: o dövrdə fəaliyyət göstərən Ağdamın "Nənə qızlar" ansamblı və onun bugünkü taleyi, "Ozan"ın indi hazırlanan proqramlarında bir sıra folklor kollektivlərinin 20 il əvvəl müxtəlif bölgələrimizdə çəkilmiş arxiv materiallarından istifadə olunur. Yeri gəlmişkən deyim ki, Azərbaycanın indiki folklor mühiti əsasən paytaxtda yerləşir. Bayaq adını çəkdiyim "Nənə qızlar" ansamblının yaradıcısı, bədii rəhbəri olmuş Xavər xanım və ansamblın digər üzvləri Bakının tələbə yataqxanalarında öz köçkünlük həyatlarını yaşayırlar. Məqsədimiz odur ki, həmin kollektivlərin bugünkü taleyinə biganə qalmayaq.

Xalça ustası Lətif Kərimovun bir söhbətini misal çəkirəm: "Əgər bir ailənin tələbatını ödəmək üçün toxunulsaydı iki-üç xalça kifayət edərdi. Ailənin başqa tələbatlarını ödəmək üçün xalçadan qazanc vasitəsi kimi istifadə edildiyinə görə sifarişçilərin arzuları nəzərə alınaraq yeni naxışlar, çalarlar, müxtəlif yeniliklərlə xalçaçılıq yeni görkəm alır". Bu baxımdan aşıq yaradıcılığı, xanəndəlik, bir sözlə, ifaçılıq sənəti də el şənliklərində, toylarda, bayramlarda inkişaf etdirilir.

-Məlumdur ki, hər bir xalq ilk növbədə musiqisində və milli geyimində tanınır. Müasir geyimlərimizdə milli geyimlərimizin bir nişanəsini belə tapmaq mümkün deyil.

-Mühitə görə tez-tez müxtəlif formalarda geyimlər geyən, hərəkətlərində ciddi olmayan kəs ciddi insan sayıla bilməz. Nahaq deməyiblər ki, qonağı geyiminə görə qarşılar, ağlına görə yola salarlar. Əlbəttə, hər bir sahədə olduğu kimi yenilik geyimlərimizdə də lazımdır. Təbii ki, 80-90 yaşlı qoca ilə 15-20 yaşlı gəncin geyimində bir fərq olmalıdır. Lakin dəb xatirinə ifrata varmaq da yaxşı cəhət deyil.

Bu gün milli geyimlərimiz milli rəqslərimizlə bərabər yaşamaqdadır. Hazırda "Aşıq Pəri" məclisinin üzvlərinə, yaradıcı və ifaçı qadın aşıqlarımız üçün Səbirə Dünyamalıyevanın eskizləri əsasında Qarabağ üslubunda milli paltarlar hazırlanır. Bu məclis qadın aşıqlarımızı tanıtmaqla yanaşı, həm də qadın aşıqlarımızın ənənələrini davam etdirir, milli geyimlərimizi qoruyub saxlayır. Sevindirici haldır ki, məclis üzvlərindən şairə Səadət Buta Gürcüstan Respublikasının "Şərəf" ordeninə layiq görülmüşdür.

-"Xalq yaradıcılığı" redaksiyası bu gün hansı problemlərlə üzləşir?

yarı ruhum, bədənimsən...

-Hər bir sahədə olduğu kimi bizim də problemlərimiz var. "Xalq yaradıcılığı" redaksiyasının hazırladığı "Qala", "Karvan", "Oğuz", "Qoşma", "Dəmirqapı Dərbənd" silsilə proqramlarına bir az da əlavə olunub-"Buta"! Dünya xalqlarının milli rəqslərindən ibarət olan bu proqramda türk, ərəb, hind, çin və başqa xalqların rəqsləri nümayiş etdirilir. Redaksiyamız aşıq yaradıcılığı ilə bağlı "Sazın-sözün sehrində" adlı proqramla vaxtaşırı tamaşaçıların görüşünə gəlir. Mövzusuna az toxunulan, unudulmaqda olan Dərbənd aşıq mühitində dərin izlər qoymuş Boyat Abbas, Müsküllü İbrahim, Müşküllü Əkbər, Dərbəndli Zərnigar kimi ustad aşıqlarımızı yada salmaqla müasir aşıqlarımızın da yaradıcılığından vaxtaşırı söhbət açır, onlardan nümunələri xalqa çatdırırıq.

Hər kəlməsindən, hər sözündən ürəyi min yerə parçalanmış Azərbaycanımızın qanı sızan, sağalmaz yaraların inliltisinə, dəhşətli, dözülməz ağrılarını-dözə bilməyən, yurd itkisinin niskilini hər birimizdən daha dərin hiss eləyən, daha tez anlayan, "Şah vüqarım" deyə qürrələnmək istəyən, özümüzdən qat-qat güclü yağılarımıza çəkinmədən sözünü birbaşa deyə bilən, Təbriz, Göyçə, Borçalı, Dərbənd itkilərinə əlavə olunmuş Qarabağ nigarançılığı yaşayan, qubar eləmiş ürəklərə bir sərinlik, doğma ocaqlarından ayrı düşmüş ellərə bir doğmalıq gətirən, beləcə yurdumuza olunan ədalətsizliklərlə barışmaq istəməyən cəngavər olub savaşar, təslim olmağı ağlına belə gətirməz. Bax, beləcə parçalanmış ellərinin qisasını almaq üçün "Ozan" olub bölgələrimizi qarış-qarış dolanar, gah "Karvan"a yoldaş olar, gah saz çalıb "Qoşma", "Bayatı" söyləyər, gah "Dəmirqapı Dərbənd" səfərinə çıxar, məclislər açar, ruhumuzu pərvazlandırar.

Bütöv bir xalqın yaradıcılığını qorumaq, təbliğ eləmək, keşiyində dayanmaq kimi çətin və müqəddəs bir qismət yazıldı ömür yoluna Ağalar müəllimin.

Tanınmış elm və incəsənət xadimlərimizin Ağalar müəllim haqqında söylədikləri ürək sözləri necə də səmimi səslənir:

-O televiziyada təkbaşına bütöv bir redaksiyanın işini görür. "Dəmirqapı Dərbənd", "Oğuz", "Qala", "Karvan" kimi populyar verilişlər onun həyat idealı, sənət pasportudur...

Nizami Xudiyev, əməkdar elm xadimi, professor.

-Ağaların şerlərində yaşamadığı, yanmadığı bir misra yoxdur...

Nəbi Xəzri, xalq şairi.

-Ciddi araşdırmaların, səmimi, təkrarsız şerlərin müəllifi Ağalar ömrünün böyük bir hissəsini həmkarlarının təbliğinə həsr edib...

Nəriman Həsənzadə, əməkdar incəsənət xadimi.

-Ağalar Mirzə bütün ömrünü folklorun təbliğinə həsr edib.

Qəzənfər Paşayev, professor.

-Ağalar Mirzə poeziyasındakı ölüm obrazı sabaha qapı açan, sabahlardan ötrü insanı darıxdıran, insanı həyat adlı dadlı bir nemətdən bəhrələnməyə çağıran bir qüvvədir.

Niyaməddin Şəmsizadə, professor.

-Ağalar Mirzə şairlikdən, folklorşünaslıqdan başqa, həm də adam sərrafıdır.

Ədalət Nəsibov, əməkdar incəsənət xadimi.

-Xalqımızın təfəkküründən qatlarını açmaq, onun söz aləmini, milli müsiqisini, adət-ənənələrini və daha nələrini göstərmək, bir millət kimi varlığımızı özümüzə və başqalarına nümayiş etdirməkdir onun işinin adı...

Əjdər Ol, şair.

Ağalar Mirzə cəmiyyətimizdə öz xasiyyətindəki kübarlığı, daxili aləmindəki bakirəliyi qoruyub saxlamış və bütün yaradıcılığında vətənpərvərlik mövzusunu ideal obraz kimi vermişdir. Vətənpərvərlik duyğusu, millilik təəssübü səni doğulduğun torpağın təmsilçisi eləmirmi? Xalq yaradıcılığını təkrarən xalqa çatdırmaq. Qəribə təzaddır. Belə insanlar öz əqidələrini dəyişmirlər.

Fazilə Qaraxanqızı